İMPERATİV Elmi-nəzəri jurnal | The scientific-theoretical journal 01 (03) 2026 (səh./p. 138-142)

## TARİX və ANTROPOLOGİYA

UOT 94(479. 24)
DOI: https://doi.org/10.30546/19063.2026.03.005.2076

# SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİNİN ÇUXURSƏD BƏYLƏRBƏYLİYİNDƏ DEMOQRAFİK PROSESLƏRƏ TƏSİRLƏRİ (XVI-XVII ƏSR)

**ƏLİ SİYAB OĞLU BABAZADƏ**
*Bakı Dövlət Universitetinin*
*Azərbaycan tarixi (təbiət fakültələri üzrə)*
*kafedrasının doktorantı*
*Akademik Zahid Xəlilov küçəsi 33, AZ1148*
*ORCID: 0009-0007-6072-8780*
*Email: babazade.9923@mail.ru*

## XÜLASƏ

Məqalədə XVI-XVII əsrlərdə Səfəvi-Osmanlı müharibələrinin Çuxursəd bəylərbəyliyində dövlət idarəçiliyi, məskunlaşma və əhali hərəkətləri üzərində yaratdığı demoqrafik nəticələr araşdırılır. Tədqiqatın əsas diqqəti İrəvan vilayəti və Naxçıvan bölgəsinin siyasi-hərbi qarşıdurmalar fonunda necə dəyişdiyini göstərməyə yönəlmişdir. Mənbələrin müqayisəli təhlili göstərir ki, Amasiya sülhündən sonra nisbi sabitlik yaransa da, XVI əsrin sonlarından başlayan yeni müharibələr bölgədə kütləvi köçlərə, əsir aparılmalara, yaşayış məntəqələrinin boşalmasına və etnik-dini nisbətin dəyişməsinə səbəb olmuşdur. 1590-cı il İrəvan vilayətinin müfəssəl dəftəri, İsgəndər bəy Münşinin məlumatları, eləcə də Evliya Çələbi, J. B. Tavernye və Jan Şardən kimi səyyahların qeydləri Çuxursədin eyni vaxtda həm strateji mübarizə meydanı, həm də dərin sosial-demoqrafik böhran zonası olduğunu üzə çıxarır. Məqalədə Şah Abbasın “yandırılmış torpaq” siyasəti, Naxçıvan və Culfa əhalisinin köçürülməsi, Osmanlı yürüşlərinin şəhər və kənd həyatına təsiri ayrıca təhlil edilir. Nəticə etibarilə, Çuxursəd bəylərbəyliyində demoqrafik proseslərin yalnız təbii əhali artımı və ya yerli sosial münasibətlərlə deyil, imperiyalararası sərhəd müharibələri, dini-siyasi qarşıdurmalar və məcburi köçürmə siyasətləri ilə sıx bağlı olduğu əsaslandırılır.

**Açar sözlər:** *Səfəvi-Osmanlı müharibələri, Çuxursəd bəylərbəyliyi, İrəvan vilayəti, Naxçıvan, demoqrafik proseslər, məcburi köçürmə, yandırılmış torpaq siyasəti.*

## Giriş

Tarixən dövlətlərin əlverişli-coğrafi regionlar, təbii sərvətlər, eləcə də ideoloji cəbhədə apardığı müharibələr böyük bir kataklizmlərə gətirib çıxarmış, bəzən bir bölgə, region müharibənin çətinlikləri ucbatından bütöv və ya natamam şəkildə kimsəsiz əraziyə çevrilmiş, bəzən isə müharibə edən tərəflərdən biri qalib gəldiyi təqdirdə özünün güc balansını qorumaq üçün bölgəyə başqa regionlardan xeyli sayda əhali köçürmüş və özünə etnik dayaq yaratmışdır. Bu proseslər müharibə gedən regionun siyasi, iqtisadi, sosial vəziyyətinə deyil, həmçinin, demoqrafik mənzərəsinə də təsirsiz qalmamışdır. Belə regionlardan biri də Azərbaycan Səfəvilər imperiyasının əsas inzibati-ərazi vahidlərindən biri olan Çuxursəd bəylərbəyliyi idi. Bölgə Osmanlı imperiyası ilə Səfəvilər imperiyasının sərhədlərində yerləşirdi, buradan əlverişli ticarət yolları keçirdi. Bu baxımdan regionu ələ keçirmək üçün Osmanlı imperiyası XVI əsrdən etibarən Səfəvilərlə tez-tez toqquşmalı olurdu.

## Səfəvi-Osmanlı müharibələrinin birinci mərhələsi və Çuxursəd bəylərbəyliyi

Tarixi araşdırmalardan aydın olur ki, Azərbaycan Səfəvilər imperiyası dövründə Çuxursəd bəylərbəyliyinin əhalisi, etnik tərkibi, burada baş verən demoqrafik proseslər Səvəfi-Osmanlı müharibələrinin gedişindən də asılı olmuşdur. Baş verən müharibələrin gedişində bölgənin yerli əhalisi olan Azərbaycan türkləri tamamilə məhv olur, yaxud da dini məzhəb baxımından şiə olduqları üçün Osmanlı hücumları zamanı bölgəni tərk edib başqa ərazilərə köçürdülər.

Səfəvi imperiyası ilə Osmanlı arasında müharibə hələ XVI əsrin əvvəllərində başladı. Belə ki, I Şah İsmayılın 1501-ci ildə hakimiyyətə gəlməsindən hər iki imperiya arasında ideoloji cəbhədə münasibətlər kəskinləşməyə başladı. Bununla belə, tərəflər arasında gərginlik 1512-ci ilə kimi müharibə ilə müşahidə olunmadı, daha çox diplomatik yazışmalarda əksini tapdı. Osmanlı taxt-tacında 1512-ci ildə sultan II Bəyazidin hakimiyyətdən salınması və sultan I Səlimin hakimiyyət başına gəlməsi ilə münasibətlər müharibə səviyyəsinə çatdı. 1514-cü ildə Çaldıran düzündə baş verən müharibə Səfəvi imperiyasının məğlubiyyəti ilə nəticələndi. Səfəvi imperiyasının məğlub olmasına baxmayaraq, Osmanlı imperiyası elə bir ciddi üstünlük qazana bilmədi. I Şah İsmayıldan sonra hakimiyyətə gələn I şah Təhmasib də Osmanlı imperiyasına heç bir güzəşt etmədi. Tərəflər arasında gəginliyin birinci mərhələsi 1555-ci il Amasiya sülh müqaviləsi ilə başa çatdı. Müqavilənin şərtlərinə görə, Səfəvilər imperiyası bütün Azərbaycan ərazilərini, habelə Şərqi Gürcüstan və indiki Ermənistan adlanan coğrafiyanı əllərində saxladılar (Azərbaycan tarixi, 1999; Əmrahov, 2022). Məlumatlardan

göründüyü kimi şah Təhmasibin hakimiyyəti illərində Osmanlı imperiyası Səfəvilər üzərində elə bir ciddi nailiyyət əldə edə bilmədi. Səfəvi imperiyasının bu zaman müdafiə strategiyası, "yandırılmış torpaq siyasəti" Osmanlı imperiyasının planlarını pozdu.

Şah Təhmasibin ölümündən sonra Səfəvi imperiyasında hakimiyyət başına keçən II Şah İsmayıl və Şah Məhəmməd Xudabəndənin dövründə tərəflər arasında nisbi sakit münasibətlər müharibələrə gətirib çıxardı. Osmanlı sultanı III Murad Azərbaycana qarşı yeni müharibəyə başladı. Bununla bağlı olaraq Osmanlı sultanı III Murad bir çox planlara əl atdı. O, əvvəlcə sərhədyanı ərazilərdəki kürd tayfalarını ayağa qaldırdı. Bir qədər sonra isə öz vassalı olan Krım xanı II Məhəmməd Gəraydan qızılbaşlara qaşı müharibəyə qoşulmağı tələb etdi (Azərbaycan tarixi, 1999).

Dövrün görkəmli Səfəvi tarixçilərindən olan İsgəndər bəy Münşi bununla bağlı olaraq yazır ki, Çuxursəd hakimi Məhəmməd Toxmaq Ustaclı Osmanlıların Gürcüstan yolunu kəsməyə cəhd etdi, Qarabağ hakimi İmamqulu xan Qacarı və Təbriz hakimini köməyə çağırdı (İsgəndər bəy Münşi, 2010, s. 501-502). Müəllif daha sonra Osmanlı hücumlarını dəf etmək üçün Azərbaycan və Gürcüstan qüvvələrinin birləşdirilməsinin əhəmiyyətini səciyyələndirərək yazırdı ki, əgər qızılbaş əmirləri arasında həmrəylik, birlik olsaydı, 50 min nəfəri təşkil edən Azərbaycan və Şirvanın bütün qoşun hissələri birləşsəydi, gürcü hissələri də onlara qoşulsaydı, o zaman Lələ paşanın bu diyara basqını belə asan olmazdı (İsgəndər bəy Münşi, 2010, s. 501-502).

Türkiyə tarixçisi F.Kırzıoğlu yazır ki, Səfəvi və Osmanlı imperiyası arasında nisbi sabitlik 1578-ci ildə yenidən müharibə mərhələsinə keçdi. 1583-cü ildə Fərhad paşanın başçılıq etdiyi Osmanlı hərbi hissələri İrəvan bölgəsinə daxil oldu. Şörəyəl və Talın mahallarını Osmanlı ordusu ələ keçirdi. Yerli əhali öz doğma torpaqlarını tək edərək Ağrıdağ ərazilərinə pənah apardı (Kırzıoğlu, 1976, s. 346). Beləliklə, ilkin məlumatlardan aydın olur ki, XVI əsrdə davam edən Səfəvi-Osmanlı müharibələri İrəvan bölgəsində demoqrafik proseslərə ciddi şəkildə təsir edir, basqınlardan, hücumlardan qorunmaq üçün yerli əhali bir yerdən başqa bir yerə köçürdü.

XVI əsrin 70-ci illərində başlayan Səfəvi-Osmanlı müharibələri Səfəvi imperiyasının məğlubiyyəti ilə başa çatdı. Osmanlı imperiyası 1583-cü ildə İrəvanı, 1586-cı ildə Ordubad, 1588-ci ildə Naxçıvanı ələ keçirdi. 1590-cı ildə tərəflər arasında İstanbul sülh müqaviləsi imzalandı. Sülhün şərtlərinə görə, Səfəvilər dövründə mövcud olan Çuxursəd bəylərbəyliyi və Naxçıvan əraziləri Osmanlı imperiyasının hakimiyyəti altında qaldı (1590-cı il İrəvan vilayətinin müfəssəl dəftəri, s. 16).

Osmanlıların Səfəvilər üzərində qazandığı qələbələri şərh edən İsgəndər bəy Münşi yazır ki, əgər dövlət xadimləri, əmirlər öz şəxsi və tayfa mənafelərini bir kənara atıb ümumdövlət mənafeyini üstün tutsaydılar Çuxursəd kimi abad bir vilayəti itirməzdilər...

### Çuxursəd bəylərbəyliyi Osmanlı hakmiyyəti altında

Bundan sonra, Osmanlı imperiyası Çuxursəd bəylərbəyliyi və Naxçıvanın əhatə olunduğu əraziləri öz idarəetməsinə uyğunlaşdıraraq, bu ərazilərdə İrəvan vilayətini yaratdı. Eyni zamanda, Çuxursəd bəylərbəyliyi ərazisində Osmanlı məmurları tərəfindən bir sıra siyahıyaalmalar həyata keçirildi. Bu mənbələrdən biri 1590-cı ilə aid olan "İrəvan vilayətinin müfəssəl dəftəri" bölgənin həm inzibati-ərazi quruluşu, əhalinin sayı, yerləşməsi, eləcə də dini-etnik tərkibini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bəhs olunan mənbə haqqında əvvəlki fəsildə geniş məlumat verildiyindən biz bu fəsildə yalnız əhalinin sayı, etnik tərkibinə toxunmağı vacib sayırıq.

1590-cı il tarixli müfəssəl dəftərin məlumatlarına görə, İrəvan vilayətinin 7 qəzası və 26 nahiyəsi var idi. Bunlardan yalnız 3 nahiyədə, Naxçıvan, Dərənürgüt və Dərəşam nahiyələrində məskunluk göstəricisi 100 faiz idi. Bununla belə, İrəvan vilayətinin müfəssəl dəftəri bölgə əhalisinin dəqiq statistik göstəricilərini özündə əks etdirmir. Burada demək olar ki, dolaşıq və ya gizli məlumatlar mövcuddur. Belə dolaşıqlıq mənbədə əksini tapan subayların sayı ilə bağlıdır. Belə ki, müsəlman olan subayların adları ümumi halda mənbədə əks olunduğu halda, xristianların statusu haqqında məlumat verilmir (1590-cı il İrəvan vilayətinin müfəssəl dəftəri, s. 32).

1590-cı il tarixli İrəvan vilayətinin müfəssəl dəftərinin məlumatlarından aydın olur ki, İrəvan vilayətində 5038 evli və 533 subay müsəlman, 5008 evli və 651 subay xristian yaşayırdı. Hesablamalar nəticəsində məlum olur ki, İrəvan vilayətində 51414 nəfər əhali yaşayırdı ki, bunun da 50,1%-i türk-müsəlman, 49,9%- i isə qeyri-millətlər, xristianlar idi (1590-cı il İrəvan vilayətinin müfəssəl dəftəri, s. 32). 1590-cı il tarixli mənbənin məlumatlarından belə aydın olur ki, İrəvan vilayətində demək olar ki, həm türk-müsəlmanlar, həm də xristianlar eynilik təşkil edirdi. Lakin mənbənin bu məlumatları ilə razılaşmaq olduqca çətindir. Bununla bağlı olaraq biz görkəmli Türkiyəli tarixçi F.Kırzıoğlunun məlumatlarına da diqqət ye-

tirməyi vacib sayırıq. Müəllif yazır ki, 1579-cu ilin sentyabr ayında Osmanlı ordusu İrəvan vilayətini işğal etməmişdən əvvəl Abaran nahiyəsində yaşayan və Çobanbəyi kimi tanınan Əli bəyin 3 min evdən ibarət əhalisini (təxminən 15 min nəfər-Ə.B.) buralardan köçürürmüşdür. Bundan başqa, Osmanlı ordusu həmin ilin oktyabr ayında isə Şərəbxana nahiyəsindən 20 min nəfər əsir aparmışdır (Kırzıoğlu, 1976, s. 327, 346). Digər tərəfdən, bölgə əhalisinin əksəriyyəti şiə məzhəbli olduğu üçün Osmanlı idarəçiliyini qəbul etməmiş və Səfəvi imperiyasının başqa-başqa ərazilərinə kütləvi köç etmişdir (Şabıyev, 2018, s. 378). Bütün bunları nəzərə almaqla biz 1590-cı il tarixli mənbədəki məlumatların İrəvan vilayətində demoqrafik vəziyyəti tam əks etdirmədiyini söyləyə bilərik.

Səfəvilər dövründə İrəvan bölgəsinin demoqrafik vəziyyəti ilə bağlı həmin dövrün mənbələrindən biri olan İsgəndər bəy Münşinin məlumatları da diqqəti cəlb edir. Bununla bağlı olaraq müəllif özünün “Dünyanı bəzəyən Abbasın tarixi” adlı əsərində Naxçıvan və Culfa ilə bağlı məlumat verir. Müəllif yazır ki, Şah Abbasın “yandırılmış torpaq” siyasəti Naxçıvan və Culfada rəiyyətin vəziyyətini çıxılmaz hala salmışdı. Bunu nəzərə alan Şah Abbas bölgə əhalisini köçürmək barədə göstəriş verdi. Bundan sonra, Şahın verdiyi fərmana Əmirgünə xan əməl edərək əhalini Qaracadağ istiqamətinə köçürdü (İsgəndər bəy Münşi, 2014, s. 1212-1213). Müəllif daha sonra yazır ki, rum əsgərlərinin İrəvana yaxınlaşması I Şah Abbası Naxçıvan və Culfa əhalisinin köçürülməsi ilə bağlı göstəriş verməsinə səbəb oldu. Naxçıvan əhalisinin köçürülməsi Maqsud sultan Kəngərliyə tapşırıldı (İsgəndər bəy Münşi, 2014, s. 1213). Məlumat üçün onu da qeyd edək ki, İsgəndər bəy Münşi köçürülən əhalinin sayı haqqında heç bir məlumat vermir. Bununla belə, o, köçürülən əhalinin yerləşdiyi məntəqələrin adını çəkir. Məsələn, İsgəndər bəy Münşi yazır ki, culfalılar İsfahanda, Zəyəndərud çayının ətrafında yerləşdirildi və hal-hazırda burada 3 minə yaxın culfalı əmin-amanlıq içərisində yaşayır (İsgəndər bəy Münşi, 2014, s. 1212-1213). Qeyd etmək lazımdır ki, bununla bağlı olaraq Təbrizli Arakel də eyni fikirləri söyləyir. Müəllif yazır ki, Sinan Ciğaloğlunun Ərzuruma yaxınlaşması xəbərini eşidən Şah I Abbas Ağcaqalaya çəkildi və bütün əhalinin köçürülməsi ilə bağlı göstəriş verdi. İrəvan şəhərinin, Ararat bölgəsinin köçürülməsi Əmirgünə xana tapşırıldı (Даврижеци, 1973, s. 61-62). T.Arakelin yazdığına görə, köçürülən bölgələr sırasında Sünik, Lori, Abaran, Şərəbxan və s. kimi yerlər də var idi. Culfa əhalisinin köçürülməsinə isə Təhmasibqulu xan başçılıq edirdi (Даврижеци, 1973, s. 74). Məlumatlardan göründüyü kimi İstanbul sülhündən sonra İrəvan bölgəsində demoqrafik vəziyyət heç də ürəkaçan deyildi. Şah Abbasın Səfəvilər imperiyasının itirilmiş qüdrətini bərpa etmək uğrunda mübarizəsi, Osmanlı qoşunlarının hücumu Çuxursəd bəylərbəyliyində əhalinin vəziyyətinə ciddi şəkildə təsir etmişdi. Bunu çətinləşdirən amillərdən biri də Osmanlı hücumlarından qorunmaq üçün Səfəvi hökmdarının “yandırılmış torpaq” siyasəti idi ki, bu zaman bölgə əhalisi köçürülməyə məruz qalırdı.

### Çuxursəd bəylərbəyliyinin əhalisi XVII əsr səyyah gündəliklərində

Səfəvilər dövründə Çuxursəd bəylərbəyliyinin əhalisi haqqında məlumatlara yerli mənbələrlə yanaşı xarici müəlliflərin əsərlərində də rast gəlmək mümkündür. Belə müəlliflərdən biri XVII əsr Osmanlı yazarı və səyyahı Evliya Çələbidir. Müəllifin 10 cildlik “Səyahətnamə”si Azərbaycan tarixi, o cümlədən İrəvan bölgəsi haqqında lazımi məlumatları özündə əks etdirir (Çələbi: 1997). İrəvan vilayətindən bəhs edərkən müəllif yazır ki, bura qəsəbə tipli yaşayış məskənidir. Burada Qərşi qalası var və indi Rəvan ərazisindədir, Azərbaycan şəhərlərindədir. Qala hündür bir təpənin üzərindədir və dördkünc formadadır. Onun içərisində 1000 nəfər dizçökən əsgər var. Bundan başqa, burada 7 minarəli məscid və bir bazar yerləşir (Çələbi, 1997, s. 6-7). Müəllif Osmanlı sultanı IV Muradın İrəvan yürüşünü də qələmə almışdır. Bununla bağlı olaraq E.Çələbi yazır ki, hicri 1043-cü ildə Sultan IV Murad Rəvan yürüşünə gedərkən Ərzurum, Van, Axısxa, Qars əsgərlərini bir yerə toplayıb, Qərşi şəhərini qarət etdi və dağıtdı. Bu günə kimi şəhər xaraba vəziyyətindədir...(Çələbi, 1997, s. 7). Səyyahın gündəliklərindən göründüyü kimi Çuxursəd bəylərbəyliyində yerləşən şəhər və qəsəbələr, oradakı əhali haqqında mənbədə müəyyən məlumatlar öz əksini tapmışdır və Osmanlı sultanı IV Muradın İrəvan yürüşü zamanı yerli əhali ciddi şəkildə əziyyət çəkmişdi. E.Çələbinin “Səyahətnamə” əsərində Çuxursəd ərazisində yerləşən Məsir kəndi haqqında verdiyi məlumatlar da diqqəti cəlb edir. Müəllif yazır ki, 13 saat yol gedərək Məsir kəndinə gəlib çatdıq. “Kənd” sözü bu diyarda qəsəbə mənasında işlənir. Məsir dağ ətəyində yerləşir. Bura 1000 torpaq evi olan bağlı, bağçalı, abad, şəffaf suyu olan bir kənddir. Buranın yaylaqlarından çaylar keçir. Burada eyni zamanda 7 məscid, 3 hamam və təqribən 300 dükan və bazar var. Bu da Rəvan ərazisində yerləşən kələntərlikdir...(Çələbi, 1997, s. 8).

Evliya Çələbi “Səyahətnamə” əsərində Naxçı-

van, burada yerləşən kənd və qəsəbələr, eləcə də buranın əhalisi haqqında da məlumat verir. Müəllif yazır ki, Üçkilsəyə tamaşa etdikdən sonra buradan qalxıb Naxçıvan ətrafına gəldik. 10 saat yol getdikdən sonra Sədərək kəndinə çatdıq. Bura mükəlləfiyyətlərdən azad olan, min evli, saysız-hesabsız bağ-bağçası, gözəl havası olan bir kənddir. Buradan yenə şərqə tərəf 18 saat yol gedərək Əhmədbəy zaviyəsinə gəldik. Bura Naxçıvan ərazisində yerləşən 500 evli, bağlı, bağçalı bir kənddir (Çələbi, 1997, s. 9-10). Müəllif Naxçıvan ərazisində yerləşən Böyük Qarabağlar şəhərini də ətraflı şəkildə təsvir edir və əhalisi haqqında məlumat verərək yazır ki, Böyük Qarabağlar şəhəri Naxçıvan ərazisində ayrıca bir sultanlıqdır. Mehmandarımızın dediyinə görə, buranın 10 minə qədər bağlı-bağçalı evi, 70 mehrabı var...(Çələbi, 1997, s. 10). Bir ailənin orta hesabla 5 nəfərdən ibarət olduğunu nəzərə alsaq, səyyahın məlumatı onu deməyə əsas verir ki, Böyük Qarabağlar kəndinin o dövr üçün 50 min nəfər əhalisi var idi.

Evliya Çələbi "Səyahətnamə" əsərində Çuxursəd bəylərbəyliyinə daxil olan Naxçıvan şəhəri haqqında da ətraflı məlumat vermişdir. Naxçıvan şəhəri haqqında danışarkən müəllif yazır ki, həqiqətən dünyanın naxış buqələmunu bu şəhərdir. Sultan IV Murad xan gəlib ordusu ilə buranı istila etmişdir. IV Muradddan sonra buranın əhalisi çoxalmış və abadlaşmışdır. Buradakı mövcud olan 10200 örtülü torpaq ev, 70 cümə məscidi, ibadətxanalar, xüsusilə şəhərə gözəllik verir. Bundan başqa, şəhərdə 40 məscid, 20 mehmanxana, 7 gözəl hamam və 1000 dükan vardır (Çələbi, 1997, s. 11-12). Beləliklə, E.Çələbinin məlumatlarından aydın olur ki, XVII əsrdə Naxçıvan şəhərinin orta hesabla 51 min nəfər əhalisi var idi.

XVII əsr Avropa səyyahlarının əsərlərində də Çuxursəd bəylərbəyliyində baş vermiş demoqrafik proseslər haqqında məlumatlara rast gəlmək mümkündür. Bunlardan biri J.B.Tavernyedir. Fransız səyyahı bununla bağlı olaraq yazır ki, Şah Abbas Osmanlı ordusunun ərzaq ehtiyatına zərbə vurmaq üçün İrəvan və Təbriz arasındakı əraziləri yandırdı. Bundan sonra o, Culfa və ətrafındakı xalqları İranın daxili bölgələrinə köçürdü (Tavernier, 2010, s. 152). Qeyd edək ki, bununla bağlı görkəmli Alman səyyahı Adam Oleari də məlumat vermişdir. Müəllif yazır ki, I Şah Abbas İrəvan, Naxçıvan, Xələc və Gürcüstandan 7000 nəfərə yaxın əhalini Fərhadabad bölgəsinə köçürdü. Bunlardan yalnız 300 nəfər öz yerlərinə qayıtdı... (Şabıyev, 2018, s. 372). Onu da qeyd etmək vacibdir ki, fransız səyyahı J.B.Tavernyenin məlumatları ilə Osmanlı səyyahı E.Çələbinin bölgə haqqında verdiyi məlumatlar bir-birinə tərs mütənasib gəlir. Düzdür, fransız səyyahı da Naxçıvanı böyük və yaraşıqlı şəhər kimi qələmə verir, lakin J.B.Tavernye yazır ki, Sultan Murad Naxçıvanı tamamilə dağıtmışdır. Bundan başqa, şəhərdə bir neçə məscid binasının qalıqları vardır (Tavernier, 2010, s. 56). Halbuki bununla bağlı Osmanlı səyyahı E.Çələbi yuxarıda qeyd etdiyimiz kimi tamamilə fərqli fikir və məlumatlar söyləyir. Görünür ki, Osmanlı səyyahı öz ölkəsinin təəssübünü çəkdiyindən, hökmdarı qarətçi və işğalçı kimi qələmə vermədiyindən, hadisələrin üzərindən sükutla keçmişdir.

Osmanlı sultanı IV Muradın Naxçıvan və İrəvan yürüşləri zamanı baş verən dağıntılardan və əhalinin ciddi itkilərindən digər fransız səyyahı Jan Şardən də bəhs etmişdir. Belə ki, J.B.Tavernyedən bir az sonra Çuxursəd ərazilərində səfərdə olan J.Şardənin məlumatları da J.Tavernyenin dediklərini təsdiq edir. Müəllif yazır ki, Naxçıvan şəhəri Səfəvi-Osmanlı müharibələrinin gedişində dağıdılmışdır. Şəhər yavaş-yavaş bərpa edilir, məskunlaşma aparılır. Şəhərin indi yalnız mərkəzi hissəsi bərpa edilib və burada təxminən 2000 ev var (Şabıyev, 2018, s. 383).

Beləliklə, yuxarıdakı hər üç səyyahın məlumatları arasındakı ziddiyyətlər Naxçıvan şəhəri haqqında dolğun fikir söyləməyə imkan vermir. Bununla belə, Osmanlı səyyahı E.Çələbinin bəzi məlumatların üzərindən sükutla keçməsi onu deməyə əsas verir ki, Səfəvi-Osmanlı müharibələrinin ağırlıq mərkəzlərindən biri olan Çuxursəd bəylərbəyliyi XVII əsrin əvvəllərində həm iqtisadi, həm də dərin demoqrafik böhran keçirmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan tarixi, (1999). 7 cilddə: 3-cü cild. Bakı: Elm.*

*2. Çələbi, E. (1997), Səyahətnamə. Türk dilindən işləyəni və şərhlərin müəllifi S. Onullahi. Bakı: Azərnəşr.*

*3. Давриҗеци, А. (1973), Книга Историей. Перевод с арм. Л.А.Ханларян. Москва: Наука.*

*4. Əmrahov, Z. (2022), İrəvan quberniyasının tarixi. 1850-1917-ci illər. Bakı: Nurlar, 2022, 368 s.*

*5. İsgəndər bəy Münşi, (2010). Dünyanı bəzəyən Abbasın tarixi. Fars dilindən çevirəni Şahin Fərzəliyev. Bakı: Şərq-Qərb.*

*6. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, fars dilindən tərcümə edəni Ş.Fazil. Bakı: Şərq-Qərb, 2014.*

*7. Kırzıoğlu, F. (1976), Osmanlıların Kafkaz ellerini fethi. (1451-1590). Ankara: TTK.*

*8. Onullahi, S (1995), Çuxursəd-İrəvan Səfəvilər dövründə // Elturan, sayı 1-2, Bakı, s. 16-19.*

*9. 1590-cı il tarixli İrəvan vilayətinin müfəssəl dəftəri. Bakı: Birol Group MMC, 2023.*
*10. Şabiyev, B. (2018), Azərbaycan Səfəvi dövlətinin İrəvan vilayəti. Bakı: Avropa nəşriyyatı, 2018.*
*11. Tavernier, J.B, (2010). Tavernier Seyahetnamesi. Yayına hazırlayan A.Berktay, çeviren T.Tunçdoğan. İstanbul: Kitap yayınları, 2010.*

## Влияние Сефевидо-Османских войн на демографические процессы в Чухур-Садском бейлербействе (XVI–XVII века)

**Али Сияб Бабазаде**

**РЕЗЮМЕ**

В статье рассматривается влияние сефевидско-османских войн XVI-XVII веков на демографические процессы в Чухурсаадском беглербегстве. Основное внимание уделяется тому, как военные столкновения, изменение власти и пограничное положение региона отразились на расселении населения, этноконфессиональной структуре и хозяйственной жизни Иреванской области и Нахчыванского региона. Сравнительный анализ источников показывает, что относительная стабильность после Амасийского мира была нарушена новой волной войн конца XVI века, что привело к массовым переселениям, уводу населения в плен, опустошению населенных пунктов и изменению демографического баланса. Особое значение в исследовании имеют данные подробной описи Иреванской области 1590 года, сведения Искандера-бека Мунши, а также путевые заметки Эвлии Челеби, Ж. Б. Тавернье и Жана Шардена. Эти материалы позволяют проследить, что Чухурсаад был не только важным военно-стратегическим пространством между двумя империями, но и территорией глубокого социально-демографического кризиса. В статье также анализируются политика “выжженной земли” шаха Аббаса, переселение населения Нахчывана и Джульфы, а также последствия османских походов для городских и сельских поселений. Сделан вывод о том, что демографическая история Чухурсаадского беглербегства формировалась под воздействием межимперских войн, религиозно-политического противостояния и практик принудительного переселения.

**Ключевые слова:** *сефевидско-османские войны, Чухурсаадское беглербегство, Иреванская область, Нахчыван, демографические процессы, принудительное переселение, политика выжженной земли.*

## Impacts of the Safavid–Ottoman Wars on Demographic Processes in the Chukhursad Beylerbeylik (16th–17th Centuries)

**Ali Siyab Babazade**

**SUMMARY**

This article examines the impact of the Safavid-Ottoman wars of the sixteenth and seventeenth centuries on demographic processes in the Chukhursad beylerbeylik. The study focuses on how military confrontation, frontier governance and imperial rivalry reshaped settlement patterns, population movements and the ethnoreligious composition of the Iravan province and the Nakhchivan region. A comparative reading of historical sources indicates that the relative stability established after the Treaty of Amasya was disrupted by renewed wars in the late sixteenth century, resulting in mass displacement, captivity, the depopulation of settlements and changes in the demographic balance of the region. The article draws on the 1590 detailed register of the Iravan province, the accounts of Iskandar Beg Munshi and the travel writings of Evliya Chelebi, J. B. Tavernier and Jean Chardin. These sources reveal Chukhursad as both a strategic borderland between two empires and a zone of acute social and demographic crisis. Particular attention is given to Shah Abbas’s scorched-earth policy, the relocation of the populations of Nakhchivan and Julfa, and the impact of Ottoman campaigns on urban and rural life. The article argues that the demographic transformation of the Chukhursad beylerbeylik cannot be explained only through internal social dynamics; it was closely tied to imperial warfare, sectarian-political conflict and policies of forced resettlement.

**Keywords:** *Safavid-Ottoman wars, Chukhursad beylerbeylik, Iravan province, Nakhchivan, demographic processes, forced resettlement, scorched-earth policy.*

*Rəyçi: T.ü.f.d, Azərbaycan Universitetinin müəllimi*
*Səbinə Rafiq qızı Məmmədli*
*Məqalə redaksiyaya daxil olub: 20.01.2026*
*Çapa qəbul olunub: 28.02.2026*

*The date of the admission of the article to the editorial office: 20.01.2026*
*Accepted for publication: 28.02.2026*